Mədəni-maarif – 1·2006



# İşinə bağlı insan

***Müsahibimiz Kürdəmir şəhər kitabxanasının müdiri Fəzilə xanım Əliyevadır.***

Fəhlə ailəsində dünyaya göz açıb. ADU-nun kitabxanaçılıq fakültəsini bitirib. Əmək fəaliyyətinə fəhlə kimi başlasa da universiteti bitirdikdən sonra 60 saylı şəhər kitabxanasının müdiri vəzifəsinə irəli çəkilir və beləcə ömrünü bu nəcib peşəyə bağlayır. Öz işgüzarlığı və əməksevərliyi ilə tez bir zamanda hamıdan seçilir, kollektivin və oxucuların hörmətini qazanır.

-Keçən il 2104 nəfər oxucumuz olub. Rayonun 16 idarə və müəssisəsi ilə müqavilə bağlamışıq. Ayda bir dəfə onlara səyyar yolla kitab veririk.

Kitabxanamızda vaxtaşırı sərgilər təşkil edilir, rəngarəng tədbirlər keçirilir. Hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi fikir veririk...

Fəzilə xanım rayonun bütün tədbirlərində yaxından iştirak edir. Rayon icra hakimiyyəti tərəfindən Fəxri Fərmanla təltif olunub.

***F.Əliyeva sənətinə ürəkdən bağlıdır. Onun üçün kitabxanaçılıqdan nəcib peşə yoxdur.***

*M.Əliyeva*
Kürdəmir